


# MÜBARİZ KEŞİKDƏ

19 dekabr 2019-cu il
Cümə axşamı

Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.
Heydər Əliyev

№ 49 (3464)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 11-də BP qurupunun baş icraçı direktoru Robert Dadlini qəbul edib***

***Dövlətimizin başçısı dekabrın 11-də Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dekabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında sərəncam imzalayıb.***

***Dekabrın 13-də ölkəmizin rəhbəri Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 13-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri təyin olunması ilə əlaqədar zati-aliləri cənab Boris Consona təbrik məktubu göndərib.***

***Dövlətimizin başçısı dekabrın 13-də Qazaxıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Kasım-Jomart Tokayevə təbrik məktubu göndərib.***

***Ölkəmizin rəhbəri dekabrın 13-də milli bayram münasibətilə Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə təbrik məktubu göndərib.***

***Dekabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə Siraqəddin Nəcəf oğlu Cabbarovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Dekabrın 16-da dövlətimizin başçısı "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayevi qəbul edib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tanzila Narbayevanı qəbul edib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Qırğız Respublikası parlamentinin - Joqorku Keneşin sədri Dastanbek Cumabekovu qəbul edib.***

# UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİNİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenskinin dekabrın 17-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Prezident Vladimir Zelenskinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Vladimir Zelenskini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Ukrayna Prezidentinə raport verdi.

Vladimir Zelenski Azərbaycan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Vladimir Zelenskiyə, Ukrayna nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan və Ukrayna prezidentlərinin qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukraynanın Prezidenti Vladimir Zelenskinin təkbətək görüşü olub.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Vladimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər.

Dekabrın 17-də Bakıda Azərbaycan-Ukrayna biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski biznes forumda iştirak ediblər.

Dövlət başçıları biznes forumda çıxış etdilər.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Ukrayna Prezidenti Vladimir Zelenskinin şərəfinə rəsmi ziyafət verilib.

Ziyafətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Ukraynanın birinci xanımı Yelena Zelenskaya da iştirak ediblər.

Azərbaycan və Ukrayna prezidentləri ziyafətdə çıxış etdilər.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT EDİB

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan müHitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın dövlət himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ilk neft tankerinin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib.**

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 17-də ölkəmizdə səfərdə olan Ukraynanın birinci xanımı Yelena Zelenskaya ilə görüşüb.***

***Görüşdə Azərbaycan ilə Ukrayna arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı ətrafında fikir mübadiləsi aparıldı.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Ukrayna Prezidentinin xanımı Yelena Zelenskaya Heydər Əliyev Mərkəzində olublar.***

***Birinci vitse-prezident Mehriban Əliyeva və Ukraynanın birinci xanımı Yelena Zelenskaya Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən sərgilərə baxdılar.***

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov dekabrın 13-də BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzu qəbul edib.**

Qonağı salamlayan nazir Böyük Britaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin bir çox sahələrdə uğurla inkişaf etdiyini, xüsusən BP şirkətinin ölkəmizin neft strategiyasının həyata keçirilməsində əhəmiyyətli rolunu, "Əsrin müqaviləsi"nin əsas iştirakçılarından və böyük payçılarından biri kimi iqtisadiyyatımıza külli miqdarda sərmayə qoymasını, şirkətin müəssisələrində yüzlərlə həmvətənimizin işləməsini məmnunluqla vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin «İxrac boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsinə dair kompleks tədbirlər planının təsdiq edilməsi haqqında» Sərəncamından irəli gələn vəzifələrin icrası yönündə Daxili İşlər Nazirliyi və ərazi polis orqanları tərəfindən lazımi tədbirlər həyata keçirilır.

Müasir informasiya texnologiyalarının, elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin əməliyyat-xidməti fəaliyyətdə tətbiqindən danışan cənab Vilayət Eyvazov insanların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, hüquq qaydasına riayət edilməsinə videonəzarətin həyata keçirilməsi, fövqəladə vəziyyətlərə çevik reaksiya verilməsi məqsədilə "102" Xidməti" Zəng Mərkəzi və "Təhlükəsiz Şəhər" Avtomatik İdarəetmə sistemlərinin geniş tətbiq olunduğunu diqqətə çatdırıb. O, əməliyyat-xidməti fəaliyyətlə yanaşı, müasir texnoloji vasitələrin iş prinsipinin də məhz insan amili kimi ali dəyər üzərində qurulduğunu, bu istiqamətdə Birləşmiş Krallığın təcrübəsinin öyrənildiyini xüsusi qeyd edib.

Enerji sahəsində, xüsusən neft bazarında baş verən dəyişikliklərə baxmayaraq, BP şirkətinin ölkəmizdə öz fəaliyyətini uğurla davam etdirdiyini məmnunluqla qeyd edən Daxili İşlər naziri tutduğu məsul vəzifədə cənab Q.Counza və onun rəhbərlik etdiyi quruma yeni uğurlar arzulayıb.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən Qəri Counz respublikamızın, onun paytaxtı Bakının sürətli inkişafının, sabitliyin, əmin-amanlığın yüksək səviyyədə qorunmasının, təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsinin şahidi olduğunu, BP şirkətinin Daxili İşlər Nazirliyi ilə işgüzar əməkdaşlığının daha da dərinləşməsinə hər zaman önəm verdiyini qeyd edib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüş zamanı tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*13 dekabr 2019-cu il*

# GƏNC ZABİTLƏR VƏZİFƏLƏRƏ TƏYİN OLUNDULAR



**Dekabrın 17-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin göndərişi ilə Rusiya Federasiyası DİN-in xüsusi ali təhsil müəssisələrində təhsillərini başa vuraraq ölkəmizə qayıtmış 9 məzuna "polis leytenantı" xüsusi rütbəsi verilməklə ixtisasları üzrə müvafiq vəzifələrə təyin olunmaları ilə əlaqədar əmr imzalayıb.**

Bu münasibətlə DİN-də keçirilən tədbirdə nazir, general-polkovnik Vilayət Eyvazov bildirib ki, ölkəmizin, eləcə də Rusiya DİN-in xüsusi ali təhsil müəssisələrinin məzunlarının vəzifələrə yerləşdirilməsi, ümumilikdə, gənc kadrların hazırlıq səviyyəsinin artırılması, onların peşəkarlığa, dövlətçiliyə, xidməti borca sədaqətə, işgüzarlığa görə vəzifədə irəli çəkilmələri, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi DİN rəhbərliyinin daim nəzarətdə saxladığı məsələlərdəndir.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının gərgin səyləri hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında ulu öndərimizin və möhtərəm Prezidentimizin qeyd etdikləri kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlət başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini gənc zabitlərin nəzərlərinə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov onları ölkəmizin daxili işlər orqanlarında xidmətə başlamaları münasibəti ilə təbrik edərək çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, daim polis adını uca tutmalarını, bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanmalarını, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

*Ümummilli liderimizin vəfatının 16-cı ildönümü günü DİN-in təmsilçiləri də Fəxri xiyabana gələrək müasir, müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, xalqımızın görkəmli oğlunun abidə kompleksi önünə əkili qoyaraq, əziz xatirəsini ehtiramla yad etmişlər.*

# MƏKTUB GƏLİB...

Polis-vətəndaş məmnunluğu redaksiyamıza gələn yüzlərlə təşəkkür məktublarında öz əksini tapır. Onlardan bir neçəsi ilə sizi də tanış edirik.

**Bakı şəhər sakini Səyavuş Abbasov** öz məktubunda yazır: "Axşamüstü həyat yoldaşım işdən evə qayıdarkən yaşadığımız binanın yaxınlığında yerləşən mağazanın qarşısında naməlum şəxs pul qabını onun əlindən alaraq qaçıb. Biz "102" Xidməti-Zəng mərkəzinə müraciət etdik və dərhal Xətai RPİ 36-cı Polis bölməsinin əməkdaşları hadisə yerinə gəldilər. Görülən tədbirlər nəticəsində hadisəni törədən şəxs isti izlərlə saxlanıldı, pul qabı və içərisində olan sənədlər bizə qaytarıldı".



**Sumqayıt şəhər sakini Fəridə Həmidova** DİN-ə ünvanladığı təşəkkür məktubunda ölkəmizdə polis-vətəndaş münasibətlərindən məmnunluğunu yazır. Əmin-amanlığın, sabitliyin təminində, cinayətkarlıqla mübarizədə polisin rolunu yüksək dəyərləndirir və Azərbaycan Polisi ilə qürur duyduğunu bildirir.

Azərbaycan Polisinin fəaliyyəti nəinki ölkə vətəndaşları, həmçinin respublikamıza gələn turistlərdə də xoş təəssuratlar yaradır. **Ukrayna vətəndaşı Natalia Şviqun** təşəkkür məktubunda yazır: " Mənə qarşı olan dələduzluq faktı ilə əlaqədar Sabunçu Rayon Polis İdarəsinə müraciət etdim. Göstərilən diqqət və qayğı məndə məmnunluq yaratdı. Şikayətimə operativ və obyektiv şəkildə baxılaraq, mənə dəyən ziyan ödənildi. Qayğı, diqqət və ədalətli mövqe üçün DİN rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm".

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# POLİSƏ TƏŞƏKKÜR EDİRLƏR

"DYP postunda yol polisi inspektoru məni saxlayaraq halımı soruşdu. Əgər yorğunamsa dincəlməyi, üzümə su vurmağı, su və ya çay içməyi təklif etdi. Tam səmimi deyim ki, belə halları sosial şəbəkədə görmüşdüm, amma bu gün canlı şahidi oldum. Bu cür işini şərəflə, vicdanla, dürüst şəkildə icra edən bütün YPX inspektorları ilə fəxr edirəm. Sürücü ilə nəzakətli davranışı, inspektorun insani keyfiyyətlərinin müsbət olmasından xəbər verirdi. Əhsən! YPX əməkdaşı Mirseyid Babayevin bu əməli həqiqətən təqdirə layiqdir". **Bu sözləri hüquqşünas Rüstəm Cəfərov yayımlayıb.** Video paylaşan hüquqşünas bir daha yol polislərinə təşəkkürünü bildirib.

*****

**Azərbaycanda yaşayan Türkiyəli iş adamı Yusuf Ziya** yol polisinə təşəkkür edib. Bu barədə o, öz sosial şəbəkə hesabında yazıb. Yusuf yazır ki, Bakıdan İsmayıllı – Gəncə- Qazax istiqamətində səyahət edərkən çətin anlar yaşayıb: "İsmayıllıda qar yağmışdı, şaxtalı idi, axşam düşmüşdü. Maşınımın təkəri boşalmışdı. Təkəri dəyişmək istəyirdim. Bu zaman qan təzyiqimin yüksəldiyini hiss etdim və bir az düşməyini gözlədim. Həmin vaxt ərazidə xidmət aparan bir yol polisi əməkdaşı mənə yaxınlaşıb problemin nə olduğunu soruşdu. Təkəri dəyişdirməli olduğumu, amma təzyiqim olduğu üçün dəyişə bilməyəcəyimi dedim.

Yol polisi əməkdaşı təkəri dəyişdirməyimə kömək etdi. Hətta məni xəstəxanaya aparmaq istədi, amma özüm gedəcəyimi söylədim və həmin polis qardaşımın telefon nömrəsini, ad və soyadını qeyd etdim. Təşəkkürünü bildirdim.

*****

**Biləsuvar rayonunun Ağalıkənd kəndinin sakini, Qarabağ müharibəsi veteranı Xalıq Səmədov** yazır: "Daxili qanaxma ilə Biləsuvar Mərkəzi Rayon Xəstəxanasına çatdırılanda huşumu itirmişəm. Çoxlu qan itirdiyimdən təcili qan köçürülməsinin lazım olduğu bildirilib. Mənim köməyimə ilk olaraq həmin xəstəxanada xidmətdə olan DİN-in Baş Mühafizə İdarəsinin Cəlilabad Regional Mühafizə Şöbəsinin polis nəfəri Azər Hüseynov çatıb və qan verərək mənim həyata qayıtmağıma yardımçı olub.

Məktub müəllifi Azərbaycan Polisinin fəaliyyətindən razılığını bildirir və xidməti fəaliyyətlərində uğurlar arzu edir.

*Natiq Cavadov,*
*polis mayoru*

# Hazırlıq işləri tamamlanıb

**Azərbaycanda yeni nəsil şəxsiyyət vəsiqələrinə elektron imza (e-imza) sertifikatlarının inteqrasiyası üzrə aparılan hazırlıq işləri başa çatdırılıb. Bunun üçün nəzərdə tutulan proqram təminatı hazırlanıb. Bu barədə "İdrak Technology Transfer" şirkətindən bildirilib.**

Layihədə iştirakçı qismində çıxış edən müvafiq dövlət qurumları tərəfindən qərar verildikdən sonra inteqrasiya işlərinə başlanılacaq. Hazırda şəxsiyyət vəsiqələrinə daxil ediləcək sertifikatlar üçün vacib olan sorğunun Milli Sertifikat Xidmətləri Mərkəzinin (MSXM) sınaq mühitində yaradılması təmin edilərək, onların MSXM-də qurulacaq infrastruktura uyğunlaşdırılması üçün profil müəyyənləşdirilir. Yeni qurulacaq Mərkəzdə tətbiq ediləcək alqoritm seçimi üzərində araşdırmalar nüfuzlu beynəlxalq strukturların apardıqları sertifikatlaşdırma sınaqları nəzərə alınmaqla davam etdirilir.

# "TÜTÜNLƏ MÜBARİZƏ AYLIĞI" KEÇİRİLİR



**Polis Akademiyasında "Tütünlə mübarizə tədbirlərinin monitorinqi" mövzusunda tədbir keçirilib.** Akademiya rəisi, polis general-mayoru Nazim Əliyev Daxili İşlər Nazirinin polis əməkdaşlarının sağlamlıq vəziyyətini daim diqqət və nəzarətdə saxlaması, bu məqsədlə verilmiş müvafiq əmr və göstərişlər, "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Qanun"un icrası ilə əlaqədar Akademiyada görülən işlər barədə məlumat verib.

Sonra Milli Məclis Aparatının sosial qanunvericilik şöbəsinin bölmə müdiri Adil Vəliyev, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin əməkdaşları Səbinə Babazadə, Tofiq Musayev, Laura Quliyeva, "DİO-nun inzibati fəaliyyəti" kafedrasının rəisi, polis polkovniki Rafiq Nəcəfquliyev öz çıxışlarında tütün məmulatlarından istifadənin insan orqanizminə vurduğu zərərlər və bunun nəticəsində ölümün statistikasında nəzərə çarpacaq dərəcədə dəyişikliyin əmələ gəlməsi barədə məlumat verib, Akademiyada hal-hazırda elan edilmiş "Tütünlə mübarizə aylığı" çərçivəsində aparılan tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib, zəruri məsələlərə toxunublar.

Tədbirə yekun vuran polis general-mayoru Nazim Əliyev xüsusi təyinatlı ali təhsil müəssisəsi olan Polis Akademiyasının kursantlarının birgəyaşayış tərzini nəzərə alaraq zərərli vərdişlərə qarşı belə profilaktiki görüşlərin davamlı keçiriləcəyini deyib.

Tədbir zamanı mövzu ətrafında hazırlanmış maraqlı slaydlar nümayiş etdirilib. Sağlam həyat tərzini təbliğ edən, zərərli vərdişlərə qarşı hazırlanmış bukletlər paylanılıb, eyni zamanda bütün kurslarda siqaretin tərgidilməsinin asan yolu və zərəri ilə bağlı videoçarx göstərilib.



Tədbirlər davam etdirilir.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# YOL POLİSİ 105 FM-DƏ

**DİN Baş Dövlət Yol Polisi İdarəsinin Azərbaycan Radiosu ilə birgə layihəsi olan "Təhlükəsiz yol" proqramı fəaliyyətə başlayıb. Dekabrın 16-da efirə çıxmış proqramın ilk buraxılışının qonağı Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalov olub.**



R.Zeynalov DİN rəhbərliyinin təşəbbüsü ilə yaradılmış bu proqramın əsas məqsədinin baş verə biləcək yol-nəqliyyat hadisələrinin vaxtında qarşısının alınması üçün hərəkət iştirakçılarının maarifləndirilməsi, yol hərəkətinin təşkilində və bu sahədə qanunvericilikdəki yeniliklər barədə məlumatların verilməsi, dinləyicilərlə birbaşa canlı ünsiyyət yaratmaqla mövcud olan problemləri dinləyib həlli istiqamətində operativ tədbirlər görmək olduğunu bildirib, yaradıcı kollektivə müvəffəqiyyətlər arzulayıb.

Hər həftənin I, III və V günləri saat 17:00-dan 18:00-dək 105 FM dalğasında yayımlanacaq proqramda təkcə aparıcıların deyil, həm də BDYPİ-nin müxtəlif xidmətlər üzrə çalışan əməkdaşlarının çıxışı nəzərdə tutulur.

# BİLİK VƏ BACARIQLARINI ƏSİRGƏMİRLƏR...

**Təqaüdə çıxsalar da cinayətkarlığa qarşı mübarizədə əldə etdikləri nəzəri və praktiki biliklərlə, illər boyu qazandıqları zəngin təcrübə ilə veteranlarımız daim yanımızdadırlar.** Əlləri işdən-gücdən soyumayan bu insanlar polis və vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsində yaxından çalışır, ictimai təhlükəsizliyin təminində, cinayətlərin qarşısının alınması və profilaktikası məqsədi ilə ərazi polis orqanlarında, nizami hissələrdə gənc əməkdaşlara əməli köməklik göstərilməsində iştirak edirlər.Veteranlarımız yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə ərazi polis orqanlarının təmsilçiləri ilə birgə vətəndaşlarla görüşlər keçirir, hüquqi mövzularda maarifləndirmə işləri aparır, gənc nəslin sağlam ruhda yetişmələri üçün böyük səy göstərirlər.

Sumqayıt RPİ-nin Veteranlar Şurasının sədri Rostovan Əliyev lə həmsöhbət olarkən bildirdi ki, qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlər məqsədyönlü şəkildə davam etdirilir. Belə ki, cari ilin 9 ayı ərzində polis veteranlarının bilavasitə yaxından iştirakı ilə 493 cinayətin açılması təmin edilib. Ötən müddət ərzində veteranlar 98 dəfə müxtəlif təhsil müəssisələrində, ictimai təşkilatlarda maarifləndirmə tədbirləri keçirərək vətəndaşlar qarşısında çıxışlar edib, tövsiyyələrini veriblər.

*N.Aytəkin*

# OXUYAQ VƏ ƏMƏL EDƏK

**"Evdən çıxarkən qapınızı asma qıfılla bağlamayın. Bu, o deməkdir ki, siz evdə yoxsunuz. Oğrular da bundan istifadə edib oğurluğa cəhd göstərərlər. Pul və qiymətli əşyalarınızın yerini ailə üzvlərinizdən başqa kənar şəxslər bilməməlidir. Azyaşlıların, qohum və qonaqların evdə olduqları vaxt pul və qiymətli əşyaların saxlanc yerinə qoyulub-götürülməsi hallarına yol verilməməlidir. Evlərinizi və obyektlərinizi qorumaq üçün mühafizə polisi ilə müqavilə bağlamaq, bu mümkün olmadıqda, ətrafında kamera quraşdırmaqla mühafizəni təmin etməyiniz məsləhət görülür".**



Xaçmaz Rayon Polis Şöbəsinin rəhbərliyi tərəfindən rayon ərazisində müxtəlif məkanlarda yerləşdirilən maarifləndirici lövhələr sakinlərin marağına səbəb olub və polisin bu işini təqdir ediblər.

Məsələ ilə bağlı Xaçmaz RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Həmid Həsənov sözügedən çağırışı əks etdirən lövhələrin şöbənin qarşısında, insanların daha gur toplaşdığı yerlərdə, bazarlarda, böyük marketlərdə, məktəblərdə vurulduğunu dedi.

Şöbə rəisi bu istiqamətdə kəndlərdə təbliğatın qurulmasında sahə rəisləri ilə ictimai şura üzvlərinin də fəallığını diqqətimizə çatdırdı və bildirdi ki, vətəndaş məmnunluğu üçün görülən hər bir iş, fəaliyyət cəmiyyətdə təqdir olunur və bu da bizi Vətənə, xalqa xidmət etməyə, işimizdə dönüş yaratmağa ruhlandırır.

*Hafiz Təmirov,*
*polis mayoru*

# GƏNCLİK VƏ GƏLƏCƏK ÜÇÜN

**Sabunçu RPİ-nin təşkilatçılığı ilə "Sağlam gələcək naminə" adlı növbəti tədbir 113 nömrəli məktəbdə keçirildi.**

Məktəbin direktoru Rövşən Qasımov tədbiri açıq elan edərək rayon rəhbərliyi və Polis İdarəsi tərəfindən narkomaniya ilə mübarizəyə həsr olunmuş tədbirlərdən, görülən işlərdən danışdı.

Sonra narkomaniyanın insan həyatına vurduğu zərərdən və narkotiklərin fəsadlarından bəhs edən videoçarx nümayiş olundu.

"Nümayiş olunan videoçarx vasitəsilə narkomaniyadan əziyyət çəkənlərin, bu bəlaya düçar olanların gələcəyə ümidinin olmamasını öz dillərindən eşitmək, əslində, daha ağrılıdır. Onların peşmançılığı başqaları üçün də ibrət olmalıdır",- deyən Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Eldar İlyasov



əvvəli həzz və əyləncələrlə ilə başlayan, facię, əzabla sonuclanan narkomaniya ilə mübarizə tədbirlərinin təkcə paytaxtımızda deyil, bütün respublikada uğurla aparıldığını bildirdi, bu sahədə əldə olunan nailiyyətləri sadaladı.

Həkim-narkoloq Pərvin Abbasova narkomanlığın genefondumuza ağır zərbə vurduğunu, onun doğurduğu təhlükələri hərtərəfli qiymətləndirməyin və mübarizə tədbirlərinin əlaqələndirilmiş formada aparılmasının vacibliyinə diqqət çəkdi.

Tədbirdə çıxış edən valideynlər gələcəyimiz olan gəncləri qorumağa yönəlik belə tədbirlərin keçirilməsini alqışladılar və polislə həmrəy olduqlarını bildirdilər.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı, onlara narkomaniyanın zərərlərini əks etdirən bukletlər paylanıldı.

*****

**Saatlı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun 2 saylı tam orta məktəbində "Narkomaniya ümumbəşəri bəladır" və "Erkən nikah və onun fəsadları" mövzusunda maarifləndirmə tədbiri keçirilib.**

Tədbirdə Təhsil şöbəsinin nümayəndələri, məktəbin şagird və müəllim kollektivi iştirak edib.

Çıxış edən RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Azər Tağıyev narkomaniyanın cəmiyyətimizə, gələcəyimiz olan gənclərin mənəviyyatına, əxlaqına ciddi mənfi təsir göstərməsindən, narkomaniya adlı xəstəliyə düçar olanların həyatlarının məhv olmasından danışıb, narkomaniya və psixotrop maddələrin yaratdığı problemlərdən və fəsadlarından geniş bəhs edib.

O, çıxışında erkən nikaha qarşı görülən işlərdən söz açaraq, bu məsələ ilə bağlı həm yeniyetmə və gənclərimizin, həm də onların valideynlərinin məlumatlandırılmasının vacibliyini vurğulayıb. Erkən yaşda qurulan nikahların yeniyetmələrin sağlamlığına, gələcək həyatlarına mənfi təsir göstərdiyini, bunun da gələcəkdə ailədaxili zorakılıq hallarının ortaya çıxmasına səbəb olduğunu bildirib.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

*****

**Daha belə bir tədbir Xocavənd Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Ağcabədi rayonunda yerləşən 1 saylı Xocavənd kənd tam orta məktəbində keçirilib.**

Çıxışında Xocavənd RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Xəyyam Mirhüseynov müasir dövrümüzün bəlası olan narkomaniyanın insanlara vurduğu mənəvi və maddi zərərlərdən söz açıb. Narkomaniyanın tək ölkəmiz üçün deyil, bütün dünya üçün təhlükə mənbəyi olduğunu bildirən X. Mirhüseynov narkomaniyaya qarşı aparılan mübarizədən, qəbul olunan dövlət proqramından danışaraq son illərdə bu istiqamətdə həyata keçirilən genişmiqyaslı maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs edib.

Sonra tədbirdə çıxış edənlər erkən nikahın fəsadları barəsində gənclərə tövsiyələr veriblər. Əvvəllər belə hallara daha çox rast gəldiklərini, ancaq indi cəmiyyətin müasirləşdiyini və qanunla nikah yaşının minimum 18 olduğu diqqətə çatdırılıb. Erkən nikahların böyük əksəriyyətinin sonradan boşanma ilə nəticələndiyini və bu işdə hamının ən azı mənəvi məsuliyyət daşıdığını bildiriblər.

Dini radikalizmdən söz açan qonaqlar dövlətimizdə dinin dövlətdən ayrı olduğunu və ölkəmizdə yaşayan hər bir şəxsin dini inancına hörmətlə yanaşıldığını, ancaq bu azadlıqlan sui-istifadə edənlərin olduğu barəsində məktəblilərə ətraflı məlumat veriblər.

# DİN-İN POLİS AKADEMİYASI 2019-cu İL ÜÇÜN DOKTORANTURAYA VƏ DİSSERTANTURAYA QƏBUL ELAN EDİR

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli, 737s nömrəli sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublıkasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2019-cu il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul Planına əsasən 2019-cu il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir.

(magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran şəxslər eyni ixtisas üzrə təkrar dissertant ola bilməzlər.

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | dissertanturaya qəbul planı | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | cəmi | o cümlədən: büdcə hesabına |
| | | | qiyabi | | |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | 3 | 3 | 4 | 4 |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 2 | 2 | 2 | 2 |
| | **Cəmi:** | 5 | | 6 | |

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya sənədlər 10-28 dekabr 2019-cu il tarixlərində həftənin I-V günlərində saat 09:00-dan 18:00-dək, şənbə günü isə saat 09:00-dan 15:00-dək (bazar və bayram günləri istisna olmaqla) qəbul ediləcək.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar.

Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

- DİN-in Polis Akademiyasının rəisinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən

Doktoranturada tam təhsil müddətini başa vurmuş şəxslər eyni ixtisas üzrə dissertantlıq yolu ilə təhsil ala bilməzlər.

Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya qəbulla bağlı aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

- ərizə (DİN-in Polis Akademiyasının rəisinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Əlavə məlumat üçün DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinə müraciət etmək olar.

**Əlaqə telefonları: (+994 12) 454-13-85, 454-34-57.**

E-mail: **ehg69@mail.ru**

Qeyd: Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər.

Xarici dildən imtahanlar proqramı müəyyən olunmuş proqram əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən 10-15 yanvar 2020-ci il tarixlərində keçirilməsi planlaşdırılır.

***DİN-in Polis Akademiyası***

# SAĞLAMLIĞIMIZ ÜÇÜN TƏLİM KEÇİRİLİB

Bu yaxınlarda DİN İdman Cəmiyyətində Gəncə-Qazax, Lənkəran-Astara, Mərkəzi Aran və Quba-Xaçmaz bölgələri üzrə 128 təlimatçı üçün nəzərdə tutulmuş əlbəyaxa döyüş və silahsız özünümüdafiə üzrə təlim keçirilib.







İki hissədən ibarət təlimdə "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində, İdman Cəmiyyətinin hazırladığı vəsaitlər, videoçarx nümayiş etdirilib. Praktiki dərslər də İdman Cəmiyyətində baş tutub. Dərsdə silahsız özünümüdafiə, yüngül atletikanın və gimnastikanın polis əməkdaşlarının fiziki hazırlığında əhəmiyyəti, keçirilmə metodikası, tutmalardan və boğucu fəndlərdən azad olmalar tədris olunub.

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Əvvəllər Rusiyada və Azərbaycanda dəfələrlə məhkumluq həyatı yaşamış, hazırda Cəlilabad şəhərində qeydiyyatda olmaqla Bakı şəhərində yaşayan 40 yaşlı Teymur Əhmədovun narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olması, odlu silah saxlaması, şantaj və hədə-qorxu ilə pul tələb etməsi barədə Cəlilabad Rayon Polis Şöbəsinə əməliyyat məlumatı daxil olmuşdur.

Bununla əlaqədar polis əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri ilə T.Əhmədov idarə etdiyi "Hyundai" markalı avtomobillə Cəlilabad şəhərində saxlanılaraq RPŞ-yə gətirilmişdir.

Özünün və hal şahidlərinin iştirakı ilə onun avtomobilinə baxış keçirilmiş, oradan narkotik vasitə olan 455 qram heroin, 1 ədəd elektron tərəzi və balta aşkar edilərək götürülmüşdür.

Davam etdirilən əməliyyat tədbirləri ilə onun paytaxt ərazisindəki evində odlu silah saxlaması da müəyyən olunmuşdur.

Dərhal Bakı şəhərinə ezam olunmuş Cəlilabad RPŞ-nin əməkdaşları T.Əhmədovun yaşadığı mənzilə baxış keçirmiş, oradan "Kalaşnikov" markalı avtomat, içərisində 12 ədəd patron olan daraq aşkar edilərək götürülmüşdür.

Bundan əlavə, T.Əhmədovun Cəlilabad şəhər sakini olan bir nəfəri barəsində sosial şəbəkələrdə rüsvayedici məlumatlar yayacağı ilə hədələyərək müxtəlif vaxtlarda ondan ümumilikdə 50 min manat pul alması, həmçinin hədə-qorxu yolu ilə zərərçəkmişə məxsus "VAZ-2109" markalı avtomobili zorla alması da müəyyən edilmişdir.

Aşkar olunmuş faktlar üzrə Cəlilabad RPŞ-də araşdırmalar aparılır.

Teymur Əhmədovun törətdiyi digər cinayətlərin də müəyyən olunması üçün zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*****

Dekabrın 12-də saat 19:00 radələrində paytaxtın Səbail rayonu Üzeyir Hacıbəyov küçəsindəki marketlərin birində iki nəfər oğurluğa cəhd göstərib. Bunun qarşısı marketin işçiləri tərəfindən alınarkən onlar bıçaqla hədə-qorxu gələrək hadisə yerini tərk ediblər. Bu zaman həmin ərazidə xidmət aparan polis əməkdaşlarının operativliyi və çevikliyi sayəsində hər iki şəxs saxlanılaraq 39-cu Polis Bölməsinə gətirilib.

Saxlanılan zaman onlar polis əməkdaşlarına da müqavimət göstəriblər. Araşdırmalarla onların Yevlax rayon sakinləri, əvvəllər qəsdən sağlamlığa ağır zərər vurma və xuliqanlığa görə məhkum olunmuş Y.Abdullayev və qohumu M.Məmmədov olmaları müəyyən edilib.

Hər iki şəxs barəsində toplanmış materiallar araşdırılması üçün Səbail RPİ-nin İstintaq şöbəsinə göndərilib. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

*****

Xaçmaz rayonu Mirzəmməd kənd sakini H.Pənahov Rayon Polis Şöbəsinə müraciət edərək evindən 1000 manat dəyərində qızıl-zinət əşyalarının oğurlandığı barədə məlumat verib.

Məlumatla əlaqədar RPŞ-də dərhal əməliyyat qrupu yaradılıb. Peşəkarlıqla keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Elnur Quliyev saxlanılıb. Dindirilmə zamanı saxlanılan şəxs törətdiyi cinayət əməlini edərək, evdə heç kimin olmadığı vaxtda evə daxil olduğunu və zərərçəkmişə məxsus qızıl-zinət əşyaları oğurladığını bildirib.

Polis əməkdaşları tərəfindən keçirilən digər bir uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində rayonun Yeni Həyat qəsəbəsində yerləşən evlərin birindən qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəxs saxlanılıb. Araşdırmalarla onun Ramin Qoçadze müəyyən edilib.

R.Qoşadze əvvəllərdə müxtəlif rayonlarda silsilə oğurluqlar etdiyinə görə dəfələrlə məhkum olunub.

Hər iki faktla bağlı Xaçmaz RPŞ-də cinayət işi açılıb, araşdırmalar aparılır.

*****

Bu ilin aprel ayında Şəki Şəhər Rayon Polis Şöbəsinə ərizə ilə müraciət edən şəhər sakini bir qadın ona məxsus evdən 1900 manat pulun oğurlanması barədə məlumat verib.

DİN Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, polis əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə həmin hadisənin narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə saxlanılmış, əvvəllər məhkum olunmuş və hal hazırda barəsində həbs qətimkan tədbiri seçilmiş şəhər sakini Rəhman Xəlilov tərəfindən törədildiyi aşkar olunub.

*****

Astara Rayon Polis Şöbəsinə hazırda Rusiya Federasiyasında yaşayan Rinad Talıbova məxsus rayonun Şiyəkəran kəndində yerləşən evdən məişət əşyalarının oğurlanması ilə bağlı müraciət olunub. Polis əməkdaşlarının keçirdiyi əməliyyat axtarış tədbirləri ilə oğurluğu törətməkdə şübhəli bilinən şəxs müəyyən edilərək saxlanılıb. Araşdırmalarla onun Astara rayonunun Şiyəkəran kənd sakini Raqif Mirzəyev olduğu müəyyən edilib. R.Mirzəyev saxlanıldıqdan sonra üzərinə keçirilən baxış zamanı ondan bir bükümdə narkotik vasitə heroin aşkar edilərək götürülüb. Onun ətrafında aparılan əməliyyat tədbirləri ilə R.Mirzəyevin daha 3 həmkəndlisinin evindən və bir çayxanadan oğurluq etdiyi, əsasən sahiblərinin Rusiya Federasiyasında yaşadığı evləri hədəf seçdiyi məlum olub.

# "DOSTUM"A XƏYANƏT ETMİŞDİ...

**Dövlətin gücü gənclərdən asılıdır. Çünki bu günün sağlam gəncliyi bizim güclü sabahımızdır. Və bu istiqamətdə aparılan işlərdə valideynlərin yaxından köməklik göstərməsi və iştirakı vacibdir.**

Hər bir valideynin arzusu övladlarını cəmiyyət üçün faydalı vətəndaş kimi yetişdirməkdir. Elə bu gənclərimizin ən yaxın dostu olan bizlərin-daxili işlər orqanlarının da ümdə arzusudur. Ancaq əfsuslar olsun ki, övladına pis nümunə olan valideynlər də var...



Azyaşlı olduğu üçün çox rahat idi. Elə bilirdi ki, ondan heç kəs şübhələnməyəcək, törətdiyi əməllər cəzasız qalacaq. Düşüncəsində "müsəlmançılıqdır, rəhm edərlər deyib" gününü keçirirdi.

K. evlərindən xeyli aralıda yerləşən "Dostum" marketi özünə gözaltı etmişdi. O, bu marketə bir neçə dəfə müştəri qismində girərək qiymətli spirtli içkilər oğurlamışdı.

Market sahibi şübhələndiyi üçün onu nəzarətsiz qoymamağı qərara almışdı. Çünki artıq müşahidə kamerasında həmin şəxsin oğurluq etdiyini görmüşdü.

Ağzında şirə qalanın kefinə sonuncu dəfə market sahibi əməlli-başdı soğan doğradı. Çox arxayınçılıqla yenidən mağazaya daxil olub oğurluq etdiyi vaxt yaxalandı və aidiyyatı üzrə Xətai RPİ 35-ci PB-nə gətirildi.

Bölmə rəisi, polis polkovnik-leytenantı Rəhman İsmayılov bildirdi ki, aparılan zəruri istintaq tədbirləri nəticəsində bu gəncin daha böyük əməllər sahibi olduğu məlum oldu. Sən demə, o, təkcə oğurluğa deyil, nəzarətsiz həyat tərzinə də vərdiş edib. Oğurladığı qiymətli spirtli içkiləri 8-ci kilometr bazarında dəyər-dəyməzinə sataraq narkotik vasitə alırmış. Bir qədər məsti-xumar olduqdan sonra növbəti planını qururdu.

Bölmə rəisinin sözlərinə görə, K. istintaq zamanı min bir bəhanə ilə haqq qazanmağa çalışsa da ona təqdim edilən tutarlı dəlil-sübutlar qarşısında aciz qaldı. Hətta digər yerlərdə də anoloji əməllər törətdiyini etiraf etdi.

Gəlin, polisimizə yaxın olaq. Yaxın olaq ki, özümüzü qada-baladan, balalarımızı pis yoldan, zərərli vərdişlərdən, "ağ ölümdən" uzaq tuta bilək...

*Teymur Əlizadə,*
*polis kapitanı*

# HƏQİQƏT AXTARIŞINDA



**Azərbaycan tarixi üçün mühüm əhəmiyyət kəsb edən və tədqiqat obyekti kimi araşdırılması vacib olan sənədlərin, tarixi materialların qorunub-saxlanılması bu gün dövlətimizin diqqət mərkəzindədir.**

Tarixi həqiqətləri üzə çıxarmaq, başımıza gələn faciələrə siyasi və hüquqi qiymət vermək üçün tutarlı mənbələrin saxlandığı DİN-in arxivinə tarixçilər daha çox üz tuturlar.

Bu günlərdə AMEA-nın Tarix institutundan DİN rəhbərliyinə edilən müraciətdə repressiya illərində "Xalq düşməni" damğası ilə əksəriyyəti sürgün edilmiş şəxslər barəsində tarixi faktlara aydınlıq gətirmək üçün sözügedən qurumun əməkdaşlarının arxivimizə ezam olunması barədə müraciət olunub.

Məsələyə aydınlıq gətirən DİN-in Arxivinin rəisi, polis polkovnik-leytenantı Samir Nağıyev bildirdi ki, müraciətlə əlaqədar tariximizin qaranlıq səhifələrinin üzə çıxarılması üçün burada təhqiqat aparan şəxslərə lazımı şərait yaradılıb.

İnanırıq ki, soydaşlarımızın ötən əsrdə sürgün olunmasına, yaşadığı faciələrə və məhrumiyyətlərə həsr olunmuş gələn il işıq üzü görəcək elmi araşdırma Azərbaycan tarixşünaslığına yeni töhfə olacaq.

*Hafiz Təmirov,*
*polis mayoru*

# YANĞIN NƏTİCƏSİNDƏ ZƏRƏR ÇƏKƏN OLMADI



Dekabrın 14-də Nəsimi rayonu ərazisində yerləşən bazarda baş vermiş yangın zamanı polis əməkdaşları nümunəvi xidmət apardılar. Onlar yangın zamanı asayişi qorumaqla yanaşı, həm də sahibkarlara məxsus tələf olmayan malların bazardan çıxarılmasında yaxından köməklik göstərdilər. Hadisə baş verən ərazidən keçən avtomobillərin hərəkətinin tənzimlənməsi də təmin olundu.

*T.Əlizadə,*
*fotolar N.Abdullayevindir*



Dekabrın 13-də günorta saatlarında Quba Rayon Polis Şöbəsinə rayonun Tülər kənd ərazisində yerləşən ümumtəhsil orta məktəbində yangın baş verməsi barədə məlumat daxil olub.

Baş verən yangın hadisəsinə Quba Rayon Polis Şöbəsinin və FHN-nin əməkdaşları operativ reaksiya verərək, alovun qarşısının alınması üçün zəruri tədbirləri həyata keçiriblər. Polis əməkdaşları yangının baş verdiyi ərazidə təxirəsalınmaz təhlükəsizlik tədbirləri həyata keçirərək, şagirdlərin, eləcə də məktəb avadanlıqlarının binadan çıxarılmasında köməklik göstəriblər.

Hadisə nəticəsində məktəbə qismən ziyan dəysə də, xəsarət alan olmayıb.

# "SON GECƏ" TƏQDİM OLUNDU

**Dekabrın 14-də "AzərKitab" mərkəzində Bakı şəhər BPİ-nin Katibliyinin baş inspektoru, polis mayoru Fəxrəddin Qasımoğlunun detektiv janrında yazdığı "Son gecə" adlı kitabının təqdimatı keçirilib.**




"AzərKitab"ın layihə rəhbəri Sabir Həsənov tədbiri giriş sözü ilə açaraq uzun illər daxili işlər orqanlarında çalışan müəllifin qarşılaşdığı hadisələr əsasında yazdığı kitabın oxucuların rəğbətini qazanacağına, sənət adamları tərəfindən onun gələcəkdə ekranlaşdırılmasına da inamını ifadə etdi.

Son zamanlar ədəbiyyatımızda detektiv janra marağın artdığını deyən "Polis" qəzetinin redaktoru, polis mayoru Elşad Hacıyev dedi ki, ictimaiyyətin maariflənməsi və psixoloji mühitin formalaşmasında çox gərgin zəhmət sərgiləyən Fəxrəddin Qasımoğlu həm də bu əsər vasitəsilə Azərbaycanda və dünya kriminalistikasında, detektiv tarixində hansı cərəyanların baş verməsinə diqqət çəkir.

Kitab haqqında qısaca danışan müəllif diqqətə çatdırdı ki, polis əməkdaşı, həm də bir vətəndaş yanğısı ilə ərsəyə gətirdiyi əsərdə məqsədi gəncliyimizi və gələcəyimizi təhdid edən bəlalardan onları uzaq olmağa çağırmaqdır.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ (KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

2019-cu il dekabr ayının 27-də saat 08.30-da, Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən Abşeron, Salyan, İsmayıllı, Ucar, Kürdəmir, Şabran, Siyəzən, Xızı, Masallı, Şəmkir, Lənkəran şəhər, rayon polis orqanlarında və Bakı şəhər Baş Polis İdarəsinin ərazi polis qurumlarında vakant post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcəkdir. Sıra baxışında yalnız qeyd olunan rayonlarda və Bakı şəhərində yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- Ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsi sənədlərini (şəxsiyyət vəsiqəsi və hərbi bilet) təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaqdır.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcəkdir.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45. (012)-590-92-37; (012)-590-97-52;**

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi***

# PİYADALARIN TƏHLÜKƏSİZLİYİ ÜÇÜN

**Baş Dövlət Yol Polisi İdarəsi piyadaların təhlükəsizliyini təmin etmək üçün məlumatverici lövhələr hazırlayıb.** Məlumatverici lövhələr ilk olaraq Bakı-Sumqayıt və Bakı-Şamaxı yolu üzərində quraşdırılıb. Məqsəd sürücülərə piyada keçidinə az qaldığını bildirmək və sürəti şəraitə uyğunlaşdırmalarına kömək etməkdir.

Magistral yollarda olan piyada keçidlərindən 200 və 400 metr əvvəl quraşdırılan lövhələrdə sürücülərə qarşıda piyada keçidinin olduğu və diqqətli olmaları əks olunub.

Sürücülər və piyadalar bu cür nişanların yol kənarında quraşdırılmasını təqdir edir, belə nişanların piyada vurulması hallarının azalmasında əhəmiyyətli olduğunu bildirirlər.

Qeyd edək ki, bu cür məlumatverici lövhələr dünya təcrübəsində də var və effektlidir. Belə nişanlar ilk dəfə Rusiyada hazırlanıb və onlar uğurlu nəticə əldə ediblər.

*N.Cavadov,*
*polis mayoru*

# Dekabrın 11-dən 17-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 108 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 47 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 188, o cümlədən borclu şəxs qismində axtarışda olan 75 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- - Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 46 fakt müəyyən edilmişdir.

# MÜŞAVİRƏ KEÇİRİLİB

**Qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi mövzusunda ilk seminar-müşavirə dekabrın 2-də Gəncədə keçirilib.**



Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının, Daxili İşlər Nazirliyinin əməkdaşları, rayon polis idarələrinin nümayəndələri və dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

Tədbirdə Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılovun, Mərkəzi Seçki Komissiyasının üzvləri Bəxşeyiş Əsgərov və İlkin Şahbazovun, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı Hamlet Hümbətəliyevin çıxışları dinlənilib.

Çıxış edənlər seçki qanunvericiliyi, komissiyaların sistemi, polis orqanlarının birgə fəaliyyətindən, seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, sonrakı dövrdə bülletenlərin və digər sənədlərin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi barədə danışıblar.

*C.Natiq*

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti "Polis" qəzetinin redaktoru Elşad Hacıyevə anası **SAHİDƏ xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İlham Babayev, Çingiz Şıxverdiyev, Hafiz Təmirov DİN İdman Cəmiyyətinin əməkdaşı Munir Orucova atası **MUSTAFA ORUCOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov "Polis" qəzetinin redaktoru Elşad Hacıyevə anası **SAHİDƏ xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Pərviz İsmayılov və şəxsi heyəti Sahib Mirzəyevə atası **CABBAR MİRZƏYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik